1.

Beşotaqlı mənzilin otaqlarının qapıları (K, L, M, N, P)
1, 2, 3, 4, 5 nömrəli açarlarla açılır.

- ♦ L-in açarının nömrəsi, K-nın açarının nömrəsindən böyükdür.
- ♦ 3 və 4 nömrəli açarlar N və P-yə aiddirlər.
- ♦ M-in açarının nömrəsi, K-nın açarının nömrəsindən kiçikdir.

K-nın açarının nömrəsi neçədir?

A) 2
B) 1
C) 3
D) 5
E) 4

2.

Hər biri bağlar vasitəsi ilə digər bir və ya bir neçə dairə ilə əlaqələnən 6 dairənin yaratdığı vəziyyət dəyişərək sağdakı şəklə düşmüşdür (halqalar bir-birinə nəzərən yerini dəyişmiş, bağlar qırılmamışdır).
1-ci şəkildəki hansı hərflər 2-ci şəkildə X və Y kimi işarələnən dairələrin üstünə düşür (müvafiq ardıcıllıqla)?




X; Y = ?

A) D; E
B) E; D
C) F; E
D) D; B
E) F; B

3.

Verilən açılışa uyğun ***olmayan*** variantları seçin.







A) 3, 5
B) 4, 5
C) 1, 4
D) 2, 5
E) 2, 4

4.

Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun olan variantı seçin.




A) 12
B) 10
C) 9
D) 7
E) 8

5.
Qanunauyğunluğu müəyyən edin və “?” əvəzinə uyğun olan variantı seçin.

36 (17) 121  64 (12) 16  25 (15) 100  4 (?) 81

A) 11
B) 13
C) 18
D) 9
E) 1

6.
Rəhbərlik etdiyiniz sahədə dəmir boruları doğrayan işçinin iş zamanı qoruyucu eynəkdən istifadə etmədiyini görürsünüz. İşçiyə bu halın təhlükəsizlik qaydalarına uyğun olmadığını bildirdikdə o, eynəksiz işləməyin daha rahat olduğunu bildirir.
Belə bir vəziyyətdə nə edərsiniz?
A) Yalnız eynəkdən istifadə etməklə işləməyə icazə verərəm.
B) Bu məqama fokuslanmaram.
C) Ehtiyatlı olmağı tövsiyə edərəm.
D) İşçini eynəkdən istifadə etməyə inandırmağa çalışaram.
E) Onu digər işçi ilə əvəz edərəm.

7.
Müxtəlif kimyəvi maddələrin istifadə olunduğu zavodda istehsal prosesinə nəzarət üzrə məsuliyyət daşıyırsınız. İstehsal sahəsi daxilində boruların birindən kiçik kimyəvi maddə sızması baş verir.
Belə bir vəziyyətdə nə edərsiniz?
A) Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi bölməsinə məlumat verərək onların göstərişlərinə uyğun davranaram.
B) Sızma mənbəyini müəyyənləşdirərək onun qarşısını almağa çalışaram
C) Bütün istehsal sahəsinin dərhal boşaldılmasını təmin edərəm.
D) İşçilərə işi davam etdirmək barədə göstəriş verərəm.
E) Sızma güclənərsə, Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi qrupuna məlumat verməyi tapşıraram.

8.
Siz istehsal xəttinə nəzarət edirsiniz. Apardığınız keyfiyyətə nəzarət yoxlaması zamanı məhsul partiyasının tələb olunan keyfiyyət standartının o qədər də əhəmiyyətli olmayan bir parametrinə cavab vermədiyini aşkarlayırsınız. Digər tərəfdən, istehsalat sexinin heyəti bu məqama fokuslanmamağın, istehsal prosesinin davam etdirilməsinin tərəfdarıdır.
Belə bir vəziyyətdə nə edərsiniz?
A) Texniki servis xidmətinə müraciət edərək qüsurların yaranma səbəbini araşdıraram.
B) Mövcud qüsurların müştəri məmnuniyyətinə nə qədər təsir edə biləcəyini keyfiyyətə nəzarət bölməsi ilə müzakirə edərəm.
C) İstehsalat sexinin heyəti ilə razılaşaraq istehsal prosesinin davamına icazə verərəm.
D) İstehsalat sexinin heyəti ilə mövcud qüsurların müştəri məmnuniyyətinə nə qədər təsir edə biləcəyini müzakirə edərəm.
E) İstehsalat sexinin üzvlərindən məsuliyyəti öz üzərlərinə götürmələri ilə bağlı yazılı öhdəlik istəyərəm.

9.
İstehsalat rəisi işlədiyiniz fabrikdə yeni keyfiyyətə nəzarət sisteminin tətbiq edilməsi planlaşdırılır. Yeni sistemə görə məhsulların qiymətləndirilmə parametrlərinin sayı artırılmalıdır. İstehsal bölməsinin işçiləri yeni sistemin tələblərinin yüksək olduğundan şikayətlənirlər. İşçilərin fikrincə, yeni tələblərə uyğun şəkildə işləmək onlara çətin olacaq.
Belə bir vəziyyətdə nə edərsiniz?
A) İstehsal bölməsinin işçilərinə müvafiq təlimlər təşkil edərəm.
B) Keyfiyyət parametrlərinin sayının azaldılmasını rəhbərlikdən xahiş edərəm.
C) İşçilərə tədricən dəyişikliklərə uyğunlaşacaqlarını bildirərəm.
D) İşçiləri toplayaraq keyfiyyət standartlarına uyğun işləməyi tələb edərəm.
E) Əvvəlki sistemə qayıdılması ilə bağlı rəhbərlik qarşısında məsələ qaldıraram.

10.
Rəhbərlik etdiyiniz istehsalat bölməsinə yeni avadanlıq gətirilib. Avadanlığı satan firma ondan istifadə ilə bağlı operatora qısa təlim keçib. Operatorun avadanlığın funksiyalarından tam şəkildə istifadə edə bilmədiyini müşahidə edirsiniz.
Belə bir vəziyyətdə nə edərsiniz?
A) Operator üçün geniş təlimin keçirilməsinin vacibliyi ilə bağlı rəhbərliyə müraciət edərəm.
B) Operatora müstəqil şəkildə avadanlıqdan daha effektiv istifadə etməyi öyrənməyi tapşıraram.
C) Operatorun tədricən avadanlığın digər funksiyalarından istifadə etməyi öyrənəcəyini gözləyərəm.

D) Operatorun mövcud bilikləri ilə kifayətlənərəm.
E) Avadanlığı satan firmaya müraciət edərək təlimi təkrar keçirməyi xahiş edərəm.